## Həsənov Eldar Hümbət oğlunun

# MƏHKƏMƏDƏ SON SÖZÜ

**İlk növbədə, qeyd edirəm ki, barəmdə olan cinayət işini və həbs edilməyimi özümə qarşı təqib, çox böyük qanunsuzluq, haqsızlıq, ədalətsizlik və sifariş kimi qiymətləndirirəm.**

**Tənqidə görə təqib olunmağımı düşünməyə əsas verən hallardan biri kimi qeyd edirəm ki, 10.07.2018-ci il və 02.02.2020-ci il tarixlərində Bakıda və Brussel şəhərində diplomatik nümayəndəliklərdə Azərbaycan Respublikasının Prezidentinin xarici siyasət məsələləri üzrə köməkçisi Hikmət Hacıyevi və Xarici İşlər Nazirliyinin, səfirliklərin fəaliyyəti və diplomatlarla bağlı, diaspora, Gömrük Komitəsinin, Mədəniyyət Nazirliyinin fəaliyyətindəki nöqsanları, süründürməçiliyi, sui-istifadə hallarını faktlarla və sərt amma obyektiv və ədalətli şəkildə tənqid etmişəm. Hər iki qapalı iclasda mənim çıxışlarım iştirak edən şəxslərin alqışları ilə qarşılanıb. Çıxışımdan sonra tədbiri aparanlara mənə sualları olub-olmaması barədə soruşmuşam, sualları olmadıqlarını bildirərək "Çox sağ olun" demişlər. Bundan başqa, düşünürəm ki, mənim bəzi müsahibələrimdə Rusiya Federasiyası və onun xarici işlər naziri Sergey Lavrov barəsində ölkədə və xarici kütləvi informasiya vasitələrində yer almiş tənqidin tənqidi çıxışlarımın da təqib olunmağımda rolu olmuşdur.**

**Belə ki, jurnalist Aida Eyvazlının götürdüyü, 19 noyabr 2016-cı ildə dərc olunmuş müsahibəmdə 1992-ci il fevralın 26-da törədilmiş Xocalı faciəsi barədə belə demişəm: "Bu işğal planının tərtibindən həyata keçirilməsinə qədər rus hərbi birləşmələrinin iştirakı dəlillərlə, istintaq materialları ilə, məhkəmə qərarları ilə sübuta yetirilib...Azərbaycanın müstəqilliyinin əlindən alınması üçün süni bir problemin hazırlanması, sonradan bunun reallaşdırılması, tarixi torpaqlarımızın işğalı və Xocalı soyqırımının həyata keçirilməsi, bu işğalda rus silahlı qüvvələrinin iştirakı faktdır, sübutdur, dəlildir. .. Bu gün heç kimə sirr deyil ki, istər Ukrayna, istər Gürcüstan, istər Moldova və ya Qarabağdakı separatçılıqda Rusiyanın rolu var". Habelə, 2017-ci il yanvarın 21-də Moderator.az saytına verdiyim müsahibədə Sergey Lavrovun 2017-ci il yanvarın 17-si Moskvada keçirdiyi mətbuat konfransında dediyi: "Dağlıq Qarabağ münaqişəsi yalnız Azərbaycanın daxili işi deyil" tezisinə qarşı demişəm: "Aydın məsələdir ki, münaqişənin bir tərəfi Azərbaycan, digər tərəfi isə Rusiyanın öz müttəfiqi hesab etdiyi, son 25 ildə dəfələrlə təmənnasız və ya güzəştli qiymətlərlə silah ötürdüyü Ermənistandır. Bundan əlavə, 1990-cı illərin əvvəllərində Ermənistan işğalçı qüvvələrinə qarşı döyüşlər zamanı əsir götürülən hərbçilər arasında Rusiya zabit və əsgərləri də var. Bizim arxivlərimizdə də onların döyüşlərə necə və kimin əmri ilə qatıldıqlarına dair könüllü və səmimi etiraf ifadələri var. Rusiya-Ermənistan münasibətlərinin xüsusiyyəti heç kimə sirr deyil. Ayrı bir məsələdir ki, silahlı təcavüzə**

**məruz qalmış ölkəmizin BMT nizamnaməsinin 51-ci maddəsinə əsasən fərdi və ya kollektiv sürətdə özünümüdafiə hüququ var, bu hüququmuz kiminsə bəyanatı ilə məhdudlaşdırıla bilməz".** 2017-ci ildə dediklərim şükürlər olsun ikinci Qarabağ müharibəsində öz təsdiqini tapdı.

Görünür nöqsanları adı və ünvanı ilə dilə gətirməyim kimlərinsə xoşuna getməyib. Əsl həqiqət isə bundan ibarət olub ki, söylədiyim tənqidlər Dövlətimizin və Prezidentimizin apardığı siyasətə ciddi xələl gətirən, kölgə salan hallara qarşı olub. Amma başqa məsələdir ki, kim bunu necə, hansı tərzdə məruzə edib, necə qərəzli məlumat verib?!

Azərbaycanın 78 səfirlik və diplomatik nümayəndəliyindən yalnız, bir səfirliyin-Avropada ən az büdcəsi olan, ayrılmış vəsaitə ən çox qənaət edib büdcəyə qaytaran səfirliyin əvvəlcə 5 illik, nəticə olmayanda 10 illik, qane etməyəndə 20 illik fəaliyyəti yoxlanılıb. Azərbaycanın məhkəmə və istintaq tarixində bənzəri olmayan, bu cür məqsədli, qərəzli yoxlama, belə bir yanaşma olmamışdır!

Eyni yanaşmanın davamı olaraq, həm ibtidai istintaq, həm də məhkəmə baxışı zamanı mənə qarşı ayrıseçkilik münasibəti açıq formada sərgilənmiş, mənimlə eyni bir iş üzrə həbsə alınmış, məndən yaşca kiçik olan XİN-in əməkdaşları (Fərhad Molla-Zadə və başqaları) azmüddət sonra həbsdən azad edildilər, (Allah qapılarını açıq etsin) məhkəmənin yekununda isə azadlıqda qaldılar, halbuki, eyni iş üzrə mühakimə olan şəxslərdən ən yaşlısı- 67 yaş-mən olmuşam. Bu mənə qarşı olan ayrıseçkiliyin təsdiqidir.

Mənə qarşı göstərilən qərəzli münasibət, hüquqlarımın pozulması və buna göz yumulması bütün cinayət prosesi boyu davamlı şəkildə özünü göstərmişdir.

Məhkəmə hələ barəmdə olan cinayət işi üzrə hazırlıq iclasını keçirərkən Cinayət-Prosessual Məcəlləsinin 303-cü maddəsinə əsaslanmalı, ibtidai istintaq zamanı müdafiə hüququmun kobud şəkildə pozulduğunu, cinayət işinin materialları ilə tanış edilmə hüququmun təmin edilmədiyini, ittiham aktının qanunvericiliyin tələblərinə uyğun tərtib olunmadığını, habelə yol verilmiş digər kobud qanun pozuntularını əsas götürüb işi ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarmalı idi.

Lakin təəssüf ki, məhkəmə bununla bağlı verilmiş vəsatəti əsassız olaraq təmin etmədi, qanunun bu tələbinə əməl etmədi.

Məhkəmə həmin vəsatəti təmin etməməklə, əslində, ilk gündən prokurorluqla eyni mövqedə olduğunu, prokurorluğun süni surətdə qurduğu qondarma, ehtimallara əsaslanan ittihamları dəstəklədiyini təsdiq etmiş oldu.

Mənə elan edilən ittiham kobud qanun pozuntuları ilə əldə edilmiş, sübutların mümkünlüyü baxımından qeyri-mötəbər, sübut əhəmiyyəti mübahisə doğuran yolverilməz məlumat, sənəd və mülahizələr, ehtimallar üzərində qurulub.

İşdə olan və mənim təqsirsizliyimi kifayət qədər təsdiq edən ifadələr, rəsmi hüquqi sənədlər sübut kimi qəbul olunmayıb.

İstər ibtidai istintaq, istərsə də məhkəmə baxışı birtərəfli qaydada aparılıb, müdafiə tərəfinin həqiqəti üzə çıxarmaq üçün verdiyi çoxsaylı vəsatətlər qanunsuz və əsassız olaraq təmin edilməyib, bununla da mənim müdafiə hüququm kobud şəkildə pozulub.

Məhkəmə baxışında müdafiə hüququmun təmin olunmasının prosessual əsaslarından biri olan çəkişmə, tərəflərə bərabər şərait yaradılması prinsipinə ümumiyyətlə riayət edilməyib.

Belə ki, məhkəmə istintaqı yalnız ittiham tərəfinin təqdim etdiyi sübutların tədqiq olunması ilə məhdudlaşdırıldı.

Prokurorluqda olduğu kimi məhkəmə baxışı zamanı da eyni taktika seçilərək, müdafiə tərəfinin sübutların əldə olunması üçün verdiyi çoxsaylı vəsatətlərə baxılması əvvəlcə qanunsuz və əsassız olaraq təxirə salındı, sonradan isə məhkəmə istintaqına prokurorluğun tələbi ilə son verdiyi gün- 27 dekabr 2021-ci il tarixdə heç bir əsaslandırma aparılmadan, məhkəmə tarixində və təcrübəsində olmayan- bir cümlə ilə yox, bir kəlmə ilə rədd olundu.

Belə ki, məhkəmə 27 dekabr 2021-ci il tarixli iclasında həm həmin gün, həm də hələ oktyabr-noyabr aylarında verilmiş, lakin baxılmadan saxlanılmış 30-a yaxın vəsatətlərə baxıldığını bildirərək (bir çoxunu isə ümumiyyətlə xatırlaya bilmədi) müşavirəyə çıxdı və heç 5 dəqiqə keçmədən qayıdıb bir cümlə ilə bildirdi ki, vəsatətlər təmin olunmur.

Halbuki, verilmiş bütün vəsatətlər iş üzrə tam, hərtərəfli və obyektiv araşdırmanın təmin olunmasına, mühüm əhəmiyyət kəsb edən faktiki halların müəyyən olunmasına və nəticədə mənim pozulmuş hüquqlarımın bərpa edilməsinə yönəlmişdir.

Xüsusən də, müstəntiqin XİN-dən götürdüyü, lakin mənim təqsirsizliyimi birbaşa sübut etdiyindən, qəsdən cinayət işinə əlavə edilməyərək prokurorluqda saxlanılan sənədlərin: o cümlədən, səfirlik üçün inzibati bina alınması üçün yerli əmlak şirkətlərinin verdikləri təkliflərin, humanitar layihələrin icrası ilə bağlı yerli hakimiyyət orqanlarının (meriya komissiyalarının) keçirdiyi tenderlərin sənədləri, protokolları, layihə-smeta sənədlərinin tələb edilməsinə dair vəsatətlər, habelə, görülmüş tikinti-abadlıq işlərinin yerində nəzarət qaydasında yoxlanılmasına dair vəsatət, ekspertizalar keçirilməsinə dair vəsatətlər, müstəntiqin apardığı yanlış hesablamaların üzə çıxarılması məqsədi ilə mütəxəssisin cəlb olunmasına dair vəsatət, Sarayevoda inzibati binanın alınması ilə bağlı ödənilmiş pulun aid olduğu şəxsə verilməsini təsdiq edəcək şəxslərin, səfirliyin hasarının tikintisin aparmış şəxsin və bunu təsdiq edə biləcək şəxslərin: polis əməkdaşlarının, Səfirliyin texniki işçilərinin, Belqrad şəhərində alınmış inzibati binanın sahibi olmuş şəxslə mənim görüşüm zamanı tərcüməçi olmuş şəxsin, müdafiə tərəfinin təşəbbüsü ilə auditor rəyi vermiş şəxsin, 2010-2012-ci illər üzrə Səfirliyin fəaliyyətini yoxlamış yoxlaycının əlavə şahid kimi məhkəmədə dindirilməsi barədə və çoxsaylı digər vəsatətlər əsassız olaraq rədd olundu.

Qeyd olunanlarla yanaşı istər ibtidai istintaq, istərsə də məhkəmə baxışı zamanı mənə qarşı göstərilən ayrı seçkilik, tibbi yardım almaq hüququmun pozulmasında da özünü göstərdi.

Cinayət işində mənim əziyyət çəkdiyim xəstəliklərə aid kifayət qədər tibbi sənədlərin mövcud olması ilə yanaşı, məhkəmə prosesi zamanı halımın məhkəmənin gözü önündə dəfələrlə pisləşməsi, bu səbəbdən iclaslarda fasilələrin verilməsi və məhz, buna görə də məhkəmə prosesi başlayan gündən təcili-tibbi yardım həkiminin nəzarəti ilə məhkəmə iclaslarında iştirak etməyim faktı özü-özlüyündə səhhətimin təhlükəli, kritik durumda olduğunun əyani sübutudur.

Çoxsaylı xəstəliklər nəticəsində səhhətimin ağır olması stasionar şəraitdə, ixtisaslaşmış həkimin daimi nəzarətində təxirəsalınmaz kompleksli müalicə tədbirlərinin görülməsini tələb edir. Bununla bağlı cinayət işinin materiallarında bir neçə ixtisaslaşmış həkimin verdiyi rəylər var.

Avropa İnsan Hüquqları Məhkəməsinin də mənim stasionar şəraitdə ixtisaslı müalicə almağımın təmin olunmasına dair qərarları mövcuddur.

Lakin tibbi yardım almaq hüququmun təmin edilməsi, əziyyət çəkdiyim xəstəliklər üzrə ixtisaslı həkimlərin, hətta məhkəmənin özünün tanıdığı və tövsiyə etdiyi həkimin məni müayinədən keçirməsi, səhhətimin hazırkı vəziyyətini dəyərləndirməsi, kompleks laboratoriya təhlilləri aparması, müvafiq müalicə kursu təyin etməsi, o cümlədən qəbul etdiyim dərmanların sayını azaltması üçün dəfələrlə verilmiş vəsatətlər baxılmadan, müzakirəyə çıxarılmadan əsassız olaraq təmin edilmədi.

Məhkəmə iclaslarında dindirilmiş şəxslərin ibtidai istintaq zamanı alınmış ifadələrinin elanı zamanı aydın oldu ki, bütün dindirmə protokollarında onların ifadələri müstəntiq tərəfindən qəsdən, qərəzli şəkildə təhrif olunmuş formada yazılmış, onların işlətmədiyi ifadələr protokolda yer almış (**şahid Samir Həmidovun dediyi kimi "fantaziyalaşdırılmış"**), bütün protokollarda guya, mənim gələcəkdə özümü qorumaq məqsədi ilə həmin şəxslərə "israrla", "formal" olaraq nəyisə imzalatdırdığımı və sair bu kimi ifadələr eyni şəkildə təkrarlanmışdır.

Hətta, dindirmə zamanı müstəntiq ifadəni öz istədiyi kimi yazmaqdan ötrü psixoloji təzyiqlər göstərməkdən belə çəkinməmişdir. Belə ki, məhkəmədə şahid qismində ifadə verən Şahin Hacıyev müstəntiqin onu dindirərkən **"deyəsən bayramı evdə keçirməyəcəksən"** deyərək, onu həbs etməklə hədələdiyini və protokolu zorla imzalatdırdığını təsdiq etdi.

Bu onu təsdiq edir ki, dindirilmiş şəxslərin ittihamın əsas halları ilə bağlı protokollarda əks olunan ifadələri onların öz fikirləri deyil, istintaq orqanının qəbul etmək istədiyi qərarı qabaqcadan süni surətdə əsaslandırmaq üçün protokollarda əks etdirdiyi mülahizələridir və

istintaq orqanı iş üzrə həqiqətin aşkar olunmasına deyil, nəyin bahasına olursa-olsun süni surətdə mənim ittiham edilməyimə çalışıb.

Xüsusilə qeyd edirəm ki, ittiham aktında səfirliyin hasarının yenidən tikilməsi epizodu üzrə sübut kimi göstərilmiş Emil Ağayevin 11 mart 2021-ci il, Elvin Əlizadənin 12 mart 2021-ci il tarixli dindirilməsi protokolları (cild 35, vərəqə 182-185 və 192-195) üzrə heç müəlliflik ekspertizası keçirmədən də orada yazılanların müəllifinin məhz istintaq orqanı olduğu açıq-aşkar görünür. İfadələr nöqtə-vergülünə qədər eynidir, hətta bir protokolda səhv yazılan söz olduğu kimi digər protokolda təkrarlanıb, bu da onu təsdiq edir ki, bir ifadə digərindən köçürülüb.

Həmin ifadələrin yolverilməz sübut olduğundan ittihamın sübutları siyahısından və məhkəmə baxışından çıxarılması üçün verdiyimiz vəsatəti məhkəmə əsassız olaraq rədd etdi.

Bütün bunlar təsdiqləyir ki, iş üzrə sübutların toplanmasına dair qanunvericiliyin tələbləri kobud şəkildə pozulub və istintaq orqanı qanun pozuntusu ilə əldə etdiyi məlumat və sənədləri mötəbər sübut kimi qəbul edib.

Bundan başqa istər ittiham aktı ilə tanışlıq, istərsə də məhkəmə baxışında şahid ifadələrinin tədqiqi zamanı müəyyən edildi ki, müstəntiq ittiham aktında mənim "təqsirliliyim" barədə süni surətdə təsəvvür yaratmaq məqsədi ilə ifadələrin, sənədlərin məzmununu olduğu kimi deyil, ciddi təhrif olunmuş şəkildə göstərib.

Belə ki, səfirlik üçün alınmış inzibati binaların sahibləri və əmlak şirkətlərinin nümayəndələri ifadələrində mənimlə əmlakın qiyməti barədə heç bir danışıq aparmadıqlarını bildirdiklərinə baxmayaraq, müstəntiq ittiham aktında həmin şəxslərin ifadələrinə istinad edərkən, göstərmişdir ki, guya onlar əmlakın qiymətini mənimlə razılaşdırmışlar.

Baxmayaraq ki, istər ibtidai istintaq, istərsə də məhkəmə istintaqı zamanı müdafiə tərəfinin təqdim etdiyi sübutların qəbul olunmasından əsassız olaraq imtina edilmişdir, bununla belə, yenə də cinayət işinin yarı-yarımçıq materialları ilə mənim hər hansı bir cinayəti törətmədiyim, təqsirsiz olduğum sübut edildi.

Cinayət işinin materiallarından görünür ki, mənə qarşı irəli sürülmüş ittihamda səfirlik üçün inzibati binaların alınması, müxtəlif humanitar layihələr üzrə tikinti-abadlıq işlərinin aparılması, kamera-müşahidə sisteminin yenilənməsi və büdcə vəsaitinin təyinatı üzrə xərclənməməsi yer alıb.

Məhkəmə istintaqı zamanı tədqiq olunmuş sübutlarla – şahid ifadələri və rəsmi sənədlərlə müəyyən edildi ki, səfirlik üçün inzibati bina alınması məqsədi ilə dörd-beş nazirlik və dövlət komitələrinin səlahiyyətli nümayəndələrindən ibarət komissiya mənim səfir olduğum hər üç ölkədə ezamiyyətdə olub, əmlaklara baxış keçirib və nəticəsinə dair müvafiq akt tərtib ediblər.

Komissiyanın yaradılması barədə XİN-in əmrlərində komissiyanın üzvlərinin qarşısında digər vəzifələrlə yanaşı, alınacaq əmlakın yerində qiymətləndirilməsi vəzifəsi xüsusi olaraq qoyulmuşdur. Yəni əmlakın seçilməsi ilə yanaşı onun yerində qiymətləndirilməsi səfirliyə, səfirə, yəni mənə deyil, birbaşa komissiyaya tapşırılmışdır.

Hər üç ölkə üzrə yaradılmış komissiyanın bütün üzvləri və əmlaklara baxış zamanı onları müşayət etmiş səfirlik əməkdaşları məhkəmədə verdikləri ifadələrində birmənalı olaraq təsdiq etdilər ki, əmlaklara baxış keçirilərkən, Akt tərib olunarkən komissiya müstəqil

olaraq fəaliyyət göstərmiş, mən və səfirlik əməkdaşları onların işinə heç bir müdaxilə etməmişik, konkret hansısa əmlaka üstünlük verilərək seçilməsi barədə onlardan hər-hansı bir xahiş, müraciət və ya tələb etməmişik.

O cümlədən, komissiya üzvləri və komissiya sədri Vaqif Sadıqov ifadəsində göstərdi ki, əmlaklara ev sahibləri və əmlak şirkətinin nümayəndələrinin iştirakı ilə baxış keçirilmişdir, əmlakların qiyməti əvvəlcədən təqdim edilmiş təklif və əmlak şirkətinin blankında göstərilmişdir, qiymətlər şişirdilməmişdir, əgər əmlakın qiyməti şişirdilmiş olsaydı, buna etiraz edərdi və nazirliyə bildirərdi, həmin əmlakın seçimini komissiya müstəqil surətdə etmişdir, mənim tərəfimdən heç bir müdaxilə olmamışdır və ümumiyyətlə, səfir olaraq mənim komissiyanın işinə qarışmaq hüququm olmamışdır. Təxmini eyni məzmunlu ifadələri digər iki ölkədə komissiya sədri olmuş F. Mollazadə və komissiya üzvləri tərəfindən məhkəmədə verilmişdir.

İnzibati binaların alınması epizodları üzrə ittihamlarda göstərilənlərin əksinə, dindirilmiş əmlak sahiblərinin, əmlak şirkətlərinin nümayəndələrinin heç birinin ifadəsində əmlakın qiymətinin guya, mənimlə razılaşdırmalarına, əmlakın qiymətinin şişirdilməsinə, ayrılmış pulun hansısa hissəsinin mənə verilməsinə dair heç bir cümlə, kəlmə yoxdur.

Səfir olduğum ölkələrdə layihələrin həyata keçirilməsi ilə bağlı mənə qarşı irəli sürülmüş ittihamların məzmunundan görünür ki, istintaq orqanı yenə də həmin layihələrə rəhbərlik edən, layihələrin smetasını tərtib edən, görüləsi işlərin dəyərini müəyyən edən, müqavilələrin layihələrini hazırlayan, işlərin yerinə yetirilməsi üçün podratçı və subpodratçı şirkətləri, qurumları cəlb edən, kimə hansı miqdarda və hansı formada (köçürmə və ya nağd qaydada) ödənişlərin edilməsini müəyyənləşdirən qurumların və şəxsin kim olduğu aşkar surətdə bəlli olsa da, qanunsuz və əsassız surətdə bütün sadalanan bu işləri guya mənim həyata keçirdiyimi göstərib.

Sözügedən layihələrə dair ittihamda yer almış və prokurorun çıxışında xüsusilə vurğulanan *"dövlət büdcəsindən Səfirlik üçün ayrılmaqla ona, yəni Eldar Həsənova etibar edilmiş dövlətə məxsus külli miqdarda pul vəsaitini qanunsuz və əvəzsiz olaraq mənimsəmə və israf etmə yolu ilə talamaq"* dəlilindən belə çıxır ki, həmin layihələrin icra olunması məqsədi ilə ayrılmış maliyyə vəsaiti həmin layihələrin icrası üçün deyil, Səfirliyin fəaliyyəti üçün nəzərdə tutulmuşdur.

Bununla əlaqədar, bildirirəm ki, *birincisi,* cinayət işində olan müqavilələr və digər rəsmi sənədlərdə "donasiya", yəni "ianə" anlayışının işlədilməsi onu təsdiq edir ki, sözügedən pul vəsaitlərinin Səfirliyin fəaliyyətinə heç bir aidiyyəti olmamış, həmin vəsaitlər Azərbaycan hökuməti tərəfindən sırf humanitar layihələrin həyata keçirildiyi ölkələrə əvəzsiz yardım kimi verilmişdir.

İkincisi, pulun səfirliyin bank hesabına köçürülməsi isə sırf texniki məsələ olub, yəni layihələrin həyata keçirildiyi ölkələrdə layihələrlə bağlı rəsmiləşdirmələrin aparılması üçün həmin ölkələrdə o dövr üçün səfirlikdən başqa Azərbaycan Respublikasını təmsil edən ayrı bir dövlət qurumu olmayıb.

*Üçüncüsü,* humanitar layihələrin həyata keçirilməsinə başlanılarkən, iş materiallarından göründüyü kimi pulun Səfirliyin mövcud olan bank hesabına deyil, həmin vaxt XİN-in göstərişi ilə açılmış xüsusi hesaba köçürülməsi və hesabatın ayrıca aparılması,

habelə səfirliyin ehtiyacları üçün xərclənməməsi faktı da qeyd olunan pul vəsaitinin Səfirliyin fəaliyyətinə heç bir aidiyyətinin olmadığını təsdiq edir.

*Dördüncüsü*, humanitar layihələrin həyata keçirilməsi işi səfirliyin fəaliyyətinə aid olan məsələ olmamış, sadəcə, sonradan yaranmış obyektiv zərurət səbəbindən, yəni dövlətimizin əlavə vergi yükündən azad olunması üçün, formal olaraq sənədləşmənin aparılması Azərbaycan hökuməti tərəfindən səfirliyə həvalə edilmişdir.

Cinayət işinin materiallarından görünür ki, layihələrin həyata keçirilməsinə başlanarkən, ilk dövrlərdə istər Rumıniyada, istər Serbiyada sifarişçi qismində Xarici İşlər Nazirliyi çıxış edib, abadlaşdırma və bərpa barədə müqavilələri nazirlik imzalayıb və həmin müqavilələrdə əlavə dəyər vergisinin ödənilməsi nəzərdə tutulub.

O cümlədən, XİN ilə "Efekta Mimarlıq" şirkəti ilə bağlanmış müqaviləyə görə 403.000,00 avro məbləğində dövlətimiz Əlavə dəyər vergisi verməli olmuşdur.

Lakin sonradan Xarici İşlər Nazirliyi 29 noyabr 2010-cu il tarixli məktubla Nazirlər Kabinetinə müraciət göndərərək yerli qanunvericiliyə əsasən vergilərdən azad olunmaq üçün sifarişçi kimi nazirliyin deyil, səfirliyin çıxış etməsinə razılıq verilməsini xahiş edib və Nazirlər Kabinetinin 30 noyabr 2010-cu il tarixli göstərişi ilə buna razılıq verilib. Nəticədə xarici işlər nazirinin müavini Nadir Hüseynov 12 dekabr 2011-ci il tarixli məktubu ilə müvafiq təlimat göndərib.

Bundan başqa mənim memar, mərhum Eldar Hüseynovla "cinayət əlaqəsinə girməyim" təəssüratı yaratmaq üçün istintaq orqanı cinayət işində olan rəsmi sənədləri belə qəsdən nəzərə almayıb, ittihamda Eldar Hüseynovun mənim təşəbbüsümlə işə götürülməsinə dair əmək müqaviləsi bağlandığını göstərib.

Halbuki Prezident Administrasiyasının göstərişi əsasında nazir müavini Vaqif Sadıqovun imzalayıb mənə göndərdiyi 4 avqust 2010-cu il tarixli məktubla təsdiq edilir ki, layihənin müəllifi Eldar Hüseynova "tikinti işlərinin aparılması, müəllif nəzarətinin həyata keçirilməsi, ayrılmış maliyyə vəsaitinin təyinatı üzrə düzgün istifadə olunmasına nəzarət edilməsi üçün əmək müqaviləsi əsasında səlahiyyət verilib" və bu əmək müqaviləsinin bağlanması mənə həvalə edilib (cild 32, səhifə 88-95). Məhz həmin göstəriş əsasında Eldar Hüseynovla maaşı Xarici İşlər Nazirliyinin təsdiq etdiyi smeta əsasında 5000 avro (səfirin maaşından çox) olmaqla əmək müqaviləsi bağlanıb, ona xidməti pasport verilərək Serbiyaya ezam olunub.

Həmin məktubdan göründüyü kimi, Eldar Hüseynova verilmiş səlahiyyətlərə "ayrılmış maliyyə vəsaitinin düzgün istifadə olunmasına nəzarət edilməsi" xüsusi olaraq daxil edilib.

İşdə olan və məhkəmə istintaqı zamanı tədqiq edilmiş sübutlarla Eldar Hüseynovun imzaladığı rəsmi sənədlərin (layihələrin smetası, əlavə smetalar, layihələrin xərcləri, bağlanmış müqavilələr, əlavə vəsaitin ayrılmasına ehtiyac olması, işlərin yerində nəzarət qaydasında yoxlanması və sair çoxsaylı sənədlərin) məzmunundan aydın olur ki, həyata keçirilən layihələrə və maliyyə məsələlərinə, ödənişlərin edilməsinə görə yerli dövlət və bələdiyyə qurumları ilə yanaşı birbaşa Azərbaycan hökumətinin nümayəndəsi qismində o çıxış edib və məsul şəxs o olub.

Yeri gəlmişkən, qeyd etməliyəm ki, Eldar Hüsyenovu çox vicdanlı, ciddi, məsuliyyətli, tələbkar və işgüzar insan kimi tanımışam.

Məhkəmə baxışı zamanı dindirilmiş səfirlik əməkdaşları, eləcə də yerli hakimiyyət orqanlarının keçirdiyi tenderlərdə qalib gələrək humanitar layihələrin icrasında iştirak etmiş şirkətlərin rəhbərləri cinayət işində olan ifadələri ilə birmənalı təsdiq ediblər ki, şirkət rəhbərləri humanitar layihələrlə bağlı yerli hakimiyyət qurumları ilə bütün danışıqları özləri aparıblar, smeta sənədləri səfirlikdə deyil, həmin qurumlarda hazırlanıb, işin hansı şirkətə verilməsi məsələsi yerli meriya, bələdiyyə qurumlarının keçirdiyi tenderlərlə müəyyən edilib, səfirlik hər hansı tender keçirməyib, səfirliyin layihələrin həyata keçirilməsində iştirakı yalnız layihə rəhbərinin göstərişləri əsasında, onun təqdim etdiyi və hüquqşünasların yoxladığı sənədləri imzalamaqdan və ona müvafiq köməklik göstərməkdən ibarət olub, səfirlikdə müqavilə hazırlanmayıb və ya müqavilənin mətnində sonradan hər hansı bir dəyişiklik edilməyib, eləcə də layihələrin maliyyələşdirilməsi üçün ayrılmış pul vəsaitlərinin köçürülməsi, nağd olaraq aidiyyəti üzrə ödənilməsi yalnız meriya, bələdiyyə və layihə rəhbərinin müvafiq təlimatları və müraciətləri əsasında həyata keçirilib, hansı şirkətə nə qədər pul ödənilməli olduğunu səfirlik yox, onlar həll ediblər.

Şərh olunanlar bir daha göstərir ki, mənim humanitar layihələrin həyata keçirilməsi üçün ayrılmış vəsaitin xərclənməsində heç bir rolum olmayıb, cinayət işində dövlət vəsaitini taladığımı, bu məqsədlə kimlərləsə cinayət əlaqəsinə girdiyimi təsdiqləyən heç bir sübut, sənəd, dəlil, ifadə yoxdur.

Əksinə, cinayət işində olan sənədlərlə təsdiq edilib ki, səfirliyin mənə 2008-ci ilin 1 aprel tarixinə 24843 avro, 2012-ci ilin 31 dekabr tarixinə isə 24297 avro məbləğində borcu olub. Göstərilən hal təsdiq edir ki, mən səfirliyin puluna nəinki göz dikməmişəm, əksinə, səfirliyin normal fəaliyyətini təmin etmək üçün lazım olanda öz şəxsi vəsaitimi də xərcləmişəm.

Mənim heç bir sənəddə, müqavilədə, kontraktda, bank-maliyyə sənədində, imzam yoxdur.

Azərbaycan tərəfindən göndərilmiş beynəlxalq sorğu əsasında özüm, ailə üzvlərim, qohumlarım, yaxınlarım, tanışlarım və hətta, mənimlə heç bir əlaqəsi olmayan adamlarla bağlı İnterpol və Beynəlxalq Maliyyə kəşfiyyatı orqanları, eləcə də, səfir olduğum və ailə üzvlərimin yaşadığı 5 ölkənin prokurorluq orqanları tərəfindən 6 ay ərzində aparılmış araşdırma nəticəsində hər hansı bir qanunsuzluq, fakt, hal aşkar edilmədiyinə dair sənədlər alınmış, lakin onların heç də hamısı cinayət işinə əlavə edilməmişdir.

Cinayət işinə əlavə olunmuş “Azərbaycan Respublikasının Serbiyadakı səfirliyi üzrə Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq sərəncamları ilə ayrılmış vəsaitlərə dair” 15 iyun 2011-ci il tarixli arayış (cild 32, səhifə 290-296) və həmin arayışla bağlı dindirilmiş Namazov Rəşad Mənsur oğlunun ifadəsi (cild 28, səhifə 167-170) təsdiq edir ki, istər Belqrad şəhərində səfirliyə inzibati bina alınması üçün, istərsə də arayışın tərtib olunduğu tarixədək həyata keçirilmiş layihələr üçün ayrılan maliyyə vəsaitlərinin təyinatı üzrə düzgün xərclənməsi vəziyyəti yoxlanıb, hər hansı qanun pozuntusu aşkarlanmayıb.

Səfirlik tərəfindən xərc smetalarına dair proqnoz təklifləri “Büdcə sistemi haqqında” Qanunun tələblərinə uyğun olaraq vaxtında və real xərcləri əks elətdirən şəkildə hazırlanıb əsaslandırıcı və təsdiqləyici materiallar əlavə edilməklə vaxtında XİN-ə göndərilmiş, lakin xərc smetaları XİN və Maliyyə Nazirliyi tərəfindən nəzərə alınmayaraq qanunvericiliyin tələbləri pozulmaqla təsdiq edilmiş, xərclər süni surətdə azaldılmışdır.

Amma yenə də buna baxmayaraq yoxlamanın əhatə etdiyi illər üzrə ayrı-ayrılıqda və bütövlükdə ayrılmış büdcə vəsaitindən artıq xərcə yol verilməyib, əksinə, 198153,87 avro məbləğində büdcə vəsaitinə qənaət olunaraq həmin vəsait büdcəyə qaytarılıb.

Bu baxımdan mənim büdcə vəsaitlərinin xərclənməsi ilə bağlı hərəkətlərimin təhlilindən görünür ki, mən heç də özüm və ya üçüncü şəxslər üçün üstünlük əldə etmək məqsədi güdməmişəm, əksinə, rəhbərlik etdiyim səfirliyin normal fəaliyyətinin təmin olunaraq təmsil etdiyim DÖVLƏTİMİZİN – Azərbaycan Respublikasının mənafeyi və maraqlarının beynəlxalq aləmdə layiqincə qorunması, nüfuzuna xələl gəlməməsi istiqamətində səfirliyin qarşısında duran vəzifə və funksiyaların yerinə yetirilməsinə çalışmışam və buna nail olmuşam.

Mənim özümə və ailə üzvlərimə məxsus əmlakların üzərinə həbs qoyulması və prokurorun həmin əmlakların xüsusi müsadirə edilməsinə dair təklifi qanunsuz və əsassızdır, mülkiyyət toxunulmazlığına dair konstitusion hüquqların (Konstitusiyanın 13 və 29-cu maddələri), habelə "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasının 1 saylı Protokolunun tələblərinin kobud şəkildə pozulmasıdır.

Diqqətinizə çatdırıram ki, həmin əmlaklar cinayət yolu ilə əldə olunmayıb. Həyat yoldaşımın adına olan, Bakı şəhəri, Nəsimi rayonu, Kövkəb Səfərəliyeva küçəsi, ev 8, mənzi 518 A ünvanıda yerləşən mənzil istisna olmaqla qalan digər əmlaklar 20-30 il bundan əvvəl əldə edilib, əmlakların bir qismi övladlarıma babasından bağışlama və vərəsəlik yolu ilə keçib.

Lakin istintaq orqanı bu halları araşdırmadan mənim və bütün ailə üzvlərimin hüquqlarını kobud şəkildə pozub.

Cinayət Məcəlləsinin xüsusi müsadirədən bəhs edən 15-1 fəsli "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" 7 mart 2012-ci il tarixli qanunla məcəlləyə əlavə olunub. Həmin qanun 1 may 2012-ci il tarixində qüvvəyə minib. Göründüyü kimi, sözügedən əmlaklar bu qanun qüvvəyə minəndən əvvəl əldə olunub.

Qeyd etdiyim kimi sözügedən əmlaklar həmin Qanunun qüvvəyə minməsindən əvvəl əldə olunmuşdur.

Cinayət qanununun zamana görə qüvvəsinə dair Cinayət Məcəlləsinin 10.1-ci maddəsinə əsasən, əməlin (hərəkət və ya hərəkətsizliyin) cinayət sayılması və həmin əmələ görə cəza bu əməlin (hərəkət və ya hərəkətsizliyin) törədildiyi zaman qüvvədə olan cinayət qanunu ilə müəyyən edilir.

Cinayət Məcəlləsinin 10.4-cü maddəsinə əsasən, əməlin (hərəkət və ya hərəkətsizliyin) cinayət sayılmasını və həmin əmələ görə cəza müəyyən edən, cəzanı ağırlaşdıran, yaxud cinayət törətmiş şəxsin vəziyyətini başqa cür ağırlaşdıran cinayət qanununun geriyə qüvvəsi yoxdur.

**Bütün bunlar məhkəmədə vəkillər və mənim tərəfimdən arqumentlərlə, iş materiallarında olan və iş materallarına əlavə olunmamış sübutlarla darmadığın**

**olmuş saxta və qondarma ittihamların prosesual tərəfi ilə bağlı mənim mövqeyimdir.**

**Hörmətli Məhkəmə, Möhtərəm Hakimlər!**

**Üzümü sizə tuturam çünki, Siseronun dediyi kimi mən də həmişə düşünmüşəm ki,** “Hakim – danışan qanun, qanun isə – lal hakimdir!”

Bəşər tarixində insan övladı daima hüquqla qadağan edilmiş əməlləri törətdiyinə görə cəzalandırılmışdır.

**Amma nədənsə mən 13.08.2020-ci il tarixindən bu günədək yəni 17 ay 11 gündür ki, günahsız cəza çəkirəm!!**

Azərbaycan dilində bir deyim var “suyu da üfürə üfürə içmək”. Bəli, mən 20 illik səfir fəaliyyətimdə suyu üfürə-üfürə içmişəm. Çünki fəaliyyətimə daimi olaraq lupa ilə nəzarət olunurdu. Bununla yanaşı fasilələrlə barəmdə yalanlar, böhtanlar, uydurmalar sifarişlə tirajlandı. Bu gün mənə verilən qondarma ittihamlar bir bəhanədir. **Allah rəhmət etsin dahi Bəxtiyar Vahabzadəyə!** Onun dediyi kimi:

***“Talehim daş atdı, başımı yardı,***
***Buna daş neyləsin daş bəhanədir.”***

Başıma gətirilənləri, 1 il 5 aydan artıqdır qanunsuz həbsdə saxlanılmağımı təhlil edirəm. Bu nə qəzəb, bu nə kin-küdurət, bu nə qəddarlıq, amansızlıq, bu nə qisasçılıqdır. Bunu edənlərə dur demək mümkün olmadı mı? Çox təssüf və təccüb edirəm! Görünür mən çox sadəlövh olmuşam:

- Belə bir atalar məsəlimiz var : “Yalan ayaq tutar, yeriməz!” Təssüflər olsun ki, mənimlə bağlı bu gün yalanlar ayaq tutur, amma tarixdə heç vaxt yeriməyib və yeriməyəcəkdir!!
- Taleyim məni sınağa çəkəndə mümkün olduğu qədər dözənlərdən olmuşam, özünü itirənlərdən yox!
- Bu gün hər şeyin əbədi olduğunu düşünənlərə və o düçüncəyə inanlara Məmməd Arazın çox hikmətli “Dünya sənin, dünya mənim, dünya heç kimin” misralarını xatırlatmaq istəyirəm.

Bir daha bildirirəm ki, 13 avqust 2020-ci il tarixindən, yəni tutulduğum elə ilk günlərdən həbsimin əsl səbəbi mənə məlum oldu. Müxtəlif qapalı tədbirlərdə müstəqil düçüncəylə, faktlarla, obyektiv həqiqətlərə əsaslanan tənqidi çıxışlarım, KİV-ə verdiyim müsahibələr, dövlət əhəmiyyətli məsələlərlə bağlı məxfi qriflərlə yazdığım rəsmi məktublar, nəticədə guya mənim siyasi iddiada olmağım, guya müxalifət qurumları ilə əlaqə və əməkdaşlıq etməyim kimi yalan, uydurma, qərəzli və qisasçılıq məqsədi ilə

verilmiş məlumatlar əsasında Bakıya çağırılaraq əsassız, qanunsuz və sifarişlə həbs olundum. AR DTX rəhbərliyinə konkret məsələlər göstərilməklə həmin məsələlərin bütün imkan və vasitələrlə yoxlanılması barədə müraciət etdim. Həmçinin 10 iyul 2019-cu, 02 fevral 2020-ci ildəki Bakı və Brüssel şəhərində qapalı iclaslarda etdiyim çıxışların stenoqramın, audio, videoların, son 5 ildə Dövlətimə məxfi qriflərlə göndərdiyim məktubların AR XİN-dən alınaraq cinayət işinə əlavə olunmaqla yoxlanılmasını, habelə qeyd etdiklərimin hər birinə hüquqi qiymət verilməsinə dair vəsatətlərlə Prokurorluğun istintaq qrupuna müraciət etdim. Vəsatətim təmin olundu, həmin sənədlər XİN-dən tələb olunaraq prokurorluğun istintaq idarəsinə göndərildi. Bu məsələ ilə bağlı dəfələrlə istintaqın aparılmasının nə yerdə olduğu, nəticəsi barədə verilən sorğulara cavab verilmədi. Nəhayət cinayət işinin materialları ilə tanış olanda həmin sənədlərin 51 cilddən ibarət olan cinayət işinə əlavə olunmadığını aşkar etdim. Bu səbəbdən Bakı Ağır Cinayətlər Məhkəməsinin keçirdiyi elə ilk iclasında eyni tələblə vəsatət verdim. Vəsatət isə rədd olunmadı amma baxılması təxirə salındı. 27.12.2021-ci il tarixində məhkəmə tarixində və təcrübəsində olmayan CPM-in tələblərini kobudcasına pozaraq məhkəmə vəkillərim və mənim tərəfimdən verilmiş 74 vəsatəti ümumiləşdirərək bir cümlə ilə yox, bir kəlimə ilə rədd etdi. **Mənim barəmdə aparılan məhkəmə istintaqı bax bu formada "tam", "hər tərəfli" və "obyektiv" "araşdırılmışdır!"** *Hüquq sistemimizin bu formada, belə işləməsi günümüzün əsl faciəsidir. Dövlət üçün, cəmiyyət üçün, bu günümüz və sabahımız üçün ən böyük təhlükə və faciə də məhz ədalətsiz məhkəmədir, günahsız insanlara qarşı edilən zülmdür*!!

Yəni bu faciənin qurbanı bu gün mənəm, sabah sən, o biri gün başqa birisi.... *İnsanlıq tarixi və təcrübəsi belə təhlükədən çıxış yolunu isə ədalətdə, demokratik hüquqi dövlətdə, qanunun aliliyində, ədalətli ədalət mühakiməsində görmüşdür. Amma bu gün çox təəssüflər olsun ki, mənimlə bağlı aparılan icraatda bunların heç birinin heç işartıları belə görünmür*.

**Hörmətli Məhkəmə!!**

"Mənim günahım" varlığımla vətənimə xidmət etməyimdə, onun fədaisi olmağımda və sadəlövhlüklə inanmağımda olmuşdur.

"Mənim günahım" 20 il, 4 Avropa ölkəsinin hər birində sıfırdan başlamaqla 3 ölkəni strateji tərəfdaşlıq, 1 ölkəni isə dostluq tərəfdaşlıq səviyyəsinə çatdırmağımdır.

"Mənim günahım" öz təşəbbüsümlə, 2004-cü ildə ilk dəfə Azərbaycanın hüdudlarından kənarda Azərbaycandan dövlət-hökumət qurumlarının heç bir kəsin iştirakı və xəbəri olmadan özümün və ailə üzvlərimin köməkliyi ilə ilk dəfə Buxarest şəhərində 8.2 ha ərazisi olan TEY Parkında müstəqil Azərbaycanın Xilaskarı Heydər Əliyevin adının əbədiləşdirilməsinə və bu gün də həmin ərazinin H.Əliyev adına Xiyaban adlandırılmasına nail olmağımdır;

"Mənim günahım" çalışdığım 4 ölkədə xalqımızın Ümummilli Lideri Heydər Əliyev, Əlimərdan bəy Topçubaşov, Əhməd bəy Ağaoğlu, Nizami, Nəsimi, Füzuli, H. Cavid, Ü.Hacıbəyli, C.Məmmədquluzadə, B. Vahabzadə kimi tarixi şəxsiyyətlərini, görkəmli mütəfəkkirlərini, klassik ədəbiyyatımızı, mədəniyyətimizi və tariximizi tanıtmaq, sevdirmək olmuşdur;

"Mənim günahım" Xocalı soyqırımını 4 ölkədən birində, ermənilərin də təmsil olunduğu Rumıniya Parlamentində faciə kimi, ikincisi isə orda göstərdiyim fəaliyyətimə görə ittiham olunduğum BİH-nin yuxarı palatası- Senatda soyqırım adı ilə məhz soyqırım günü qətnamə qəbul edilməsinə nail olmağımdır;

"Mənim günahım" Buxarest şəhərində Müsəlman-Türk qəbiristanlığına yerli hökumətin qərarının alınmasına və istifadəyə başlamasına nail olmağımdır;

"Mənim günahım" Müqəddəs kitabımız Qurani-Kərimin ilk dəfə Rumın dilinə tərcümə edilib yayılması olmuşdur;

"Mənim günahım" Rumınıya Dövlət Universitetində Heydər Əliyev adına təqaüdün, Serbiya Musiqi Akademiyasında Üzeyir Hacıbəyov təqaüdünün təsis olunmağına nail olmağımdır;

"Mənim günahım" 275 illik tarixə malik olan Belqrad Universitetində Azərbaycan Dili və Mədəniyyəti Mərkəzinin yaradılmasına, Azərbaycan Dilinin tədris proqramına salınmasına nail olmağımdır;

"Mənim günahım" hər bir azərbaycanlının, hər bir türkün pasportu olan, "Kitabi Dədə Qorqud" dastanının çalışdığım ölkələrin dilinə tərcümə etdirib, yayılmasına və təbliğ olunmasına nail olmağımdır;

"Mənim günahım" çalışdığım 4 ölkədə 130-dan çox Azərbaycan mütəfəkkirinin, dahi alimlərimizin, yazıçı və şairlərimizin əsərlərinin yerli dillərə tərcümə olunaraq təqdimat mərasimləri keçirilməsi, yayılması və təbliğinə nail olmağımdır;

"Mənim günahım" 2-ci Dünya Müharibəsi zamanı Polşadan Rumınıyaya gələrək qardaş Türkiyə səfirliyinin sonuncu mərtəbəsində yaşayıb yaratmış, Azərbaycan Xalq Cumhuriyyətinin qurucusu Məmməd Əmin Rəsulzadənin oradakı fəaliyyətini arxiv sənədlərindən bərpa etməklə xatirə lövhəsinin quraşdırlmasına nail olmağımdır;

"Mənim günahım" 2-ci Dünya Müharibəsində çalışdığım ölkələrdə həlak olmuş azərbaycanlıların müəyyən edilərək xatirə lövhələrinin quraşdırılmasına nail olmağımdır;

"Mənim günahım" Azərbaycan Səfirliyinin yerləşdiyi binadan başlayan küçəyə dahi şairimiz B.Vahabzadənin adının verilməsinə nail olmağımdır;

Çalışdığım 20 ildə sadaladığım və sadalamadığı eyni zamanda görülməsini özümə şərəf bildiyim işlərin, layihələrin, heç birinə təkrar edirəm heç birinə Azərbaycan dövləti tərəfindən 1 manat vəsait ayrılmayıb,təklif olunanda da 1 manat qəbul etməmişəm!!

**Budur, Bunlardır "MƏNİM GÜNAHIM!!!"**

Səfir kimi çalıştığım 20 ildə lobbiçilik, diaspora, mədəniyyət, və son dövrlərdə də koronavirus pandemiyası ilə bağlı Azərbaycan Dövlətindən dəfələrlə təklif olunsa da 1 manat da olsun vəsait istəməmişəm, qəbul etməmişəm.

Bir məsələyə də münasibət bildirməyi özümə borc bilirəm. Sıralarında 20 il çalışdığım, XİN-ni zaman-zaman tənqid etsəm də, Azərbaycan Dövlət və Hökumət qurumları arasında öz peşəkarlığı, yüksək intellektual səviyyəsi, savadı ilə seçilən, bütün dövrlərdə öz vətəninə, dövlətinə, Prezidentinə sadiq olan, müqayisədə kifayət qədər mənəvi təmizliyə sahib olan bir qurumdur.

XİN-də hansısa bir səfirin mənimsəmə cinayəti haqqında düşünmək belə absurddur. Bir diplomatı yetişdirmək üçün hər bir xalqa, dövlətə illərlə vaxt lazımdır.

**Hörmətli Məhkəmə!!!**

Bu zal bu divarlar çox hakimləri, prokurorları, vəkilləri və təqsiləndirilənləri qarşılıyıb və yola salıb. Amma bəlkə də bu zal, bu divarlar mənim üzləşdiyim haqsızlıqları, qanunsuzluqları, ədalətsizlikləri, qeyri-humanist, mənəvi psixoloji işgəncələri, təqibləri görməyib, eşitməyib. Burada çox təəssüflər olsun ki, *Amerikanların məşhur bir deyimi yerinə düşər: " Önəmli deyil sən kimsən, önəmli odur ki, səni kim necə təqdim edir.". Mən də kiminsə həqiqəti yox, nəyi necə dediyinin qurbanı olmuşam.*

**Böyük Nazim Hikmət demişkən:**
***"Ədalət deyib çox aradım, çox hayqırdım, çox axtardım, çox gözlədim, sonda bulduğum ədalətin yerinə onun məzarı oldu".***

Odur ki, sizdən cinayət işinin faktiki hallarına, sübutlara, dəlillərə, obyektivliyə əsalanan ədalətli bir qərar da gözləmirəm. Siz nə tapşırılıbsa onu da elan edəcəksiniz. Lakin bir məqamı diqqətinizə çatdırım ki, bəlkə müşavirəyə gedəndə xatırladınız. AR Konstitusiyasının 25-ci maddəsində qeyd edilir ki, " Hakimlər müstəqildir və yalnız AR-nin qanunlarına tabedirlər".

5 ay ərzində həyata keçirilən məhkəmə proseslərində mənim təqsirləndirilən şəxs kimi bütün hüquqlarım açıq-aşkar kobudcasına pozulsa da, bütün məhkəmə proseslərində Siz hakimlərə çox hörmətlə, ehtiramla davrandım. Verəcəyiniz ədalətsiz, sifarişli cəza nə qədər ağır olsa da yenə də sizə hörmətlə davranacam. Baxmayaraq ki, siz mənə **Frans Kafkanın "Məhkəmə" romanındakı Yozefin həyatını yaşatdınız.** Lakin nəzərinizə çatdırım ki, pozulmuş haqq və hüquqlarımın bərpası üçün sona qədər hüquqi müstəvidə mübarizəmi aparacam!

**Möhtərəm Məhkəmə!**

**Yaşadığım 67 il ömrün nə az, nə çox 28 ilini Ulu öndər H. Əliyev və İ.Əliyev siyasi xəttinə, vətənimə, Azərbaycan Dövlətinə xidmətə sərf etmişəm. Mən bu siyasi xəttə yaltaqlıqla, məddahlıqla, sürünməklə deyil, qürurla xidmət etmişəm. Müstəqilliyimizin, dövlətçiliyimizin, ərazi bütövlüyümüzün bərpa olması üçün, hakimiyyətin ən çətin, ən ağır günlərində, kimin harda olduğu tam bəlli olmayanda, sədaqətimlə, əməli fəaliyyətimlə, imzamla xidmət etmişəm!!!**

***Anadolu Türklərində belə bir deyim var: Dövlət heç vaxt, heç bir halda hizməti unutmaz!!!***

Bilənlər bilir ki, bütün dövrlərdə müstəqil mövqeyimi, həqiqətləri, tənqidi fikirlərimi söyləmişəm. Hər kəsin sözünü kiməsə yox, gözünün içinə baxıb üzünə

demişəm, imzamla təsdiqləmişəm. Bu gün mən bu xüsusiyyətlərimin qurbanı olmuşam. Təssüflər olsun ki, əsl həqiqətləri, doğruları isə məruzə edən, dilə gətirən yoxdur. Nəticədə mən bu gün qisas alınmaq üçün verilən şər, böhtan, uydurma, yalan və qərəz xarakterli məlumatların qurbanı olmuşam. Amma unutmayaq ki, hər şeyi görən, bilən Böyük Allah var!!!

**Məruz qaldığım bütün haqsızlıqlara, qanunsuzluqlara, ədalətsizliklərə, ayrıseçkiliyə, mənəvi-psixoloji əzablara, təqiblərə görə prezident İlham Əliyevdən inciyə bilərəm, amma ona dönük çıxmaram, heç vaxt ona qarşı çıxanlardan olmaram.**

Çünki mən yaşımın bu ahıl çağında, 28 illik sədaqətimə xəyanət edəsi deyiləm. **Mənə veriləcək qanunsuz, ədalətsiz, cəzadan aslı olmayaraq mən nəvələrimə, nəsil-nəcabətimə, məni tanıyanlara belə miras heç vaxt qoymaram!**

**Digər tərəfdən bu göstərişi mənə cənab Prezident verdi, mən onun göstərişini icra etmişəm deyənlərdən də olmaram, heç bir vaxt da olmamışam. Nəzərə alsaq ki, son 28 ildə sıradan yox, müxtəlif rəhbər vəzifələrdə çalışmışan bir insan kimi heç kəsin bilmədiyi, eşitmədiyi lakin mənə məlum olan, mənim bildiklərim də yetərincədir. Bütün bunlar da mənimlə qəbrə gedəcəkdir. Amma o da nəzərə alınmalıdır ki, bu qədər amansız-qəddar şəkildə qovulmaq da olmaz. İnanın ki, mən nə qovulmaq, nə də namərd olmaq istəmirəm!!!**

**Möhtərəm Məhkəmə!**

Məhkəmədə iştirak edənlərin şahid olduğu kimi məhkəmə iclasları məhkəmə istintaqı başlayan gündən etibarən səhər saat $10^{00}$-dan məhkəmə iclası bitənədək təcili yardım maşının, onun tibbi personalının müşayəti ilə, bəzi günlərdə 2-3, hətta 4 dəfə səhhətimin ağırlaşması ilə əlaqədar təxirəsalınmaz tibbi yardımın göstərilməsi ilə həyata keçirilmişdir. Bu müddət ərzində bir çox hallarda, həkimlər məhkəmə iclasına getməyimi bir mənalı olaraq tövsiyə etməsələr də, mənim israrım tibbi sənədlərə qeyd olunmaqla, bütün məhkəmə iclaslarında nə qədər ağrılar keçirsəm də iştirak etmişəm.

Qısa da olsa sizə tarixi bir faktı xatırlatmaq istəyirəm: 1938-ci ilin elə yanvar ayında Sovet ordusunun polkovniki Mixail Yeqorov həqiqətlərdən bəhs edən bir raportu əsasında həbs olunaraq barəsində qanunsuz və ədalətsiz olaraq 12 il müddətinə azadlıqdan məhrumetmə cəzası çıxarılmışdır. Taleyin ironiyasına baxsaq görərik ki, O da mənim kimi məhkəmə proseslərinə təcili yardım həkimlərinin müşayəti ilə gətirlərək və mühakimə olunmuşdur. Lakin sonradan o həbsdə vəfat etsə də məhkəmədən 18 il sonra yəni 1956-cı ildə övladlarının şikayətləri əsasında Mixail Yeqorova bəraət hökmü çıxarılanda ona qarşı bu qanunsuzluqları törədən müstəntiq Oleq Kuznetsov, ona cəza istəyən dövlət ittihamçısı İqor Vasilyev, qanunsuz hökmü çıxaran hakim Dmitriy Alekseyev təqaüddə olmaqlarına baxmayaraq hər biri 15 il azadlıqdan məhrumetmə cəzası almışlar. Ədalət gec də olsa zəfər çaldı!!!! Həyatda isə tarixin təkrarlanan təkərini hələ heç kim dayandıra bilməmişdir.

**Möhtərəm Məhkəmə!!!**

- Bundan əvvəl dediyim kimi, kimin haqlı olmağına, günahsız olmasına ədalətli qərarı Sizin verəcəyinizə qətiyyən inanmıram. Buna yaxın tarix qərar verəcəkdir. Mənim fiziki məhvimə yönəlmiş qəddar, qeyri-insani davranış o həddə çatmışdır ki, dözülməsi çox çətin olan dəhşətli ağrılarla yaşamağıma baxmayaraq, prokurorluq və məhkəmə tərəfindən 3 ay 12 gündür ki, mənim yanıma heç bir həkim buraxılmır, heç bir tibbi yardım göstərilmir. Baxmayaraq ki, səhhətimlə bağlı Avropa İnsan Haqları Məhkəməsinin qərarı mövcuddur.

  XXI əsrin 21-ci ilində mədəni dünyada varmı 2-ci belə davranış, varmı belə növ işgəncə? varmı belə qeyri-humanistlik?

  Baxın amansız münasibətin həddi o yerə çatmışdır ki, bundan əvvəlki, yəni 14.01.2022-ci il tarixində keçirilən məhkəmə iclasından əvvəl təcili yardım həkiminin mənim səhhətimdəki kritik vəziyyətlə bağlı məhkəmə zalına girməyimə etiraz etsə də, mən israrla məhkəmə iclasında iştirak edəcəyimi bildirdim. Həkim ən azından özünü qorumaq üçün bunları tərtib etdiyi arayışda qeyd etdi. Lakin həmin tibbi sənəd məhkəmə iclasından əvvəl alınmalı olduğu halda, məhkəmə iclası başa çatandan sonra müvəqqəti yaradılmış tibb otağında, mənim yanımda məhkəmə tərəfindən götürüldü. Bu da mənim AR Konsitutsiyasında təsbit olunmuş “Yaşamaq hüququm” “Tibbi yardım almaq hüququm”!? Mənə qarşı olan münasibətin dəqiq adını siz deyin, siz qoyun!!!!

  Dünyada mənim də inandığım İlahi bir ƏDALƏT var! **O, ən böyük gücdür! O, çarpanda hər şeyi və hər kəsi yerlə yeksan edir!! Bunu heç kəs unutmasın!**

Mən bu hüquqsuzluqlara, qanunsuzluqlara, işgəncələrə məruz qalmışam!!!

Mən bir dəfə bu zalda demişəm- Bu qədər əsassız, qanunsuz, sübutsuz, dəlilsiz, şahid ifadələri, bank-maliyyə sənədləri ilə təsdiq olunmayan, heç bir alqı-satqı müqaviləsində, humanitar layihələrrin kontraktlarında imzası olmayan qondarma ittihamlar verməkdənsə yaşadığım 5-ci mərtəbədəki evimə bir tankı, bir topu qaldırıb qoymaq çətinlik törədirdisə, onun maketini qoyub elə həmin hal şahidlərinin iştirakı ilə sənədləşdirmək daha “uyğun olardı”, daha “sübutlu” olardı nəinki bu qədər əziyyət çəkilərdi!!!

**İndi isə buyurun söz Sizindir möhətərəm Məhkəmə!, mən isə haqqım olan bəarətimi tələb edirəm!!!**

Eldar Həsənov
Bakı Ağır Cinayətlər Məhkəməsi
21 yanvar 2022-ci il